# “Qadınların ədalət mühakiməsinə çıxış imkanının, o cümlədən üzləşdikləri konkret problemlərin qiymətləndirilməsi sistemi”

## mövzusunda onlayn dəyirmi masaya dair hesabat



Avropa İttifaqı
və Avropa Şurası
tərəfindən maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
icra edilir

# **“Qadınların ədalət mühakiməsinə çıxış imkanının, o cümlədən üzləşdikləri konkret problemlərin qiymətləndirilməsi sistemi”**

mövzusunda onlayn dəyirmi masaya dair hesabat

Avropa Şurası

Original: Report on the online roundtable on
“Framework to measure access to justice
including specific challenges facing women”.

Bu sənəd Avropa İttifaqı və Avropa Şurası tərəfindən birgə maliyyələşdirilən Yaxşı İdarəetmə üçün Tərəfdaşlıq II, 2019-2022 çərçivəsində “Qadınların Ədalət Mühakiməsinə Çatımlılığı: İstanbul Konvensiyası və digər Avropa gender bərabərliyi standartlarının yerinə yetirilməsi” layihəsinin bir hissəsi kimi hazırlanıb.
Burada ifadə olunan fikirlər heç bir halda heç bir tərəfin rəsmi fikrini əks etdirmir. (500 sözə qədər) Çıxarışların təkrar nəşrinə, kommersiya məqsədləri üçün nəşrlər istisna olmaqla və mətnin tamlığının qorunması, alıntının kontekstdən kənar işlədilməməsi, natamam məlumat verilməməsi və ya oxucunu mətnin xarakteri, əhatə dairəsi və mahiyyəti ilə bağlı başqa cür yanlış yönləndirməsinə yol verilməməsi şərtilə icazə verilir. Mənbəmətn həmişə aşağıdakı kimi göstərilməlidir: “© Avropa Şurası, 2021”.

Mətnin bütöv və ya hissələrinin yenidən nəşri/tərcüməsi ilə bağlı bütün digər müraciətlər Avropa Şurası, Yaxşı İdarəetmə üçün Tərəfdaşlığa ünvanlanmalıdır. Yaxşı İdarəetmə üçün Tərəfdaşlıq Avropa Şurası Proqramlar Baş İdarəsinin Ofisi (Strasburq, Cedex F-67075 və ya publishing@coe.int).

Bu sənədlə bağlı bütün digər yazışmalar aşağıdakı ünvana göndərilməlidir.
Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Avropa Şurası,
Proqramlar Baş İdarəsinin Ofisi
Strasbourg Cedex 67075 FRANSA
E-poçt: odgp_pgg@coe.int

Dizayn: Brendlərin Dostları, Kiyev, Ukrayna

Format: Sənədlər və Nəşrlərin İstehsalı
Departamenti (SPDP), Avropa Şurası

© Avropa Şurası, aprel, 2022.

Bütün hüquqlar qorunur. Şərtlərə uyğun olaraq
Avropa İttifaqı lisenziya verilmişdir.

# Mündəricat


1. Giriş 7

2. Ədalət mühakiməsinə çıxış: anlayış 8

3. Ədalət mühakiməsinə çıxış: hüquqlara əsaslanan yanaşma 10

4. Qadınların ədalət mühakiməsinə çıxışının spesifik xüsusiyyətləri
Qadınların ədalət mühakiməsinə çıxışını təşviq edən hüquqi və siyasi bazanın elementləri 11

5. Qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsində hökumətlərin rolu 13

6. Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada qadınların ədalət mühakiməsinə çıxış imkanlarının qiymətləndirilməsi sisteminin icmalı 15

# 1. Giriş

Bu hesabat Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (PGG) regional proqramı çərçivəsində həyata keçirilən "Qadınların ədalət mühakiməsinə çıxışı: gender bərabərliyinə dair İstanbul Konvensiyasının və digər Avropa standartlarının tələblərinin yerinə yetirilməsi" mövzusunda layihənin tərkib hissəsidir. Layihənin məqsədi Avropa Şurasının İstanbul Konvensiyasına uyğun olaraq qadınların, xüsusilə də zorakılığa məruz qalmış qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirmək və Şərq Tərəfdaşlığı ölkələri tərəfindən İstanbul Konvensiyasının ratifikasiya edilməsinə dəstək göstərməkdir. Layihə Avropa Şurasına üzv dövlətlərin bütün vətəndaşları, o cümlədən qadınlar üçün öz milli və Avropa Şurası standartlarına uyğun ədalət mühakiməsinə bərabər çıxışı təmin etmək və gender amilini nəzərə alan ədalət mühakiməsi sistemini inkişaf etdirmək səylərini dəstəkləməyə yönəlib. Hesabat 29-30 iyun 2020-ci il tarixlərində keçirilmiş "Qadınların ədalət mühakiməsinə çıxış imkanının, o cümlədən üzləşdikləri konkret problemlərin qiymətləndirilməsi sistemi" mövzusunda hökumətlərarası onlayn dəyirmi masanın və iştirakçı ölkələrin dövlət qurumlarına və QHT-lərinə təqdim olunan qısa onlayn sorğular vasitəsilə aparılmış məlumatların toplanması fəaliyyətinin ilkin mərhələsinin ardınca tərtib edilib.

Hesabat qadınların yaşadığı təcrübələr və konkret ehtiyacları nəzərə alınmaqla onların ədalət mühakiməsinə çıxış imkanlarını qiymətəndirmək üçün baza təşkil edir. Hesabatda milli hakimiyyət orqanlarına öz milli və Avropa Şurası standartlarına uyğun olaraq bütün vətəndaşlarının, o cümlədən qadınların ədalət mühakiməsinə inklüziv çıxışını təmin etmələri üçün hökumət siyasəti və müdaxilələrinin məlumatlı şəkildə hazırlanmasında faydalı ola biləcək əsas məlumatların toplanmasına yönələn tədqiqat planına dair tövsiyələr təqdim edilir.

Hesabatda təqdim olunan təhlil və tövsiyələr qadınların ədalət mühakiməsinə çıxışı üçün iştirakçı ölkələrdəki sistemlərin mövcud qiymətləndirilmələrindən[1] əldə etdiyimiz və iştirakçı ölkələrin hökumətlərindən və QHT-lərindən aldığımız məlumatları əks etdirir.

Bu hesabatın 2 və 3-cü bölmələrində insan hüquqları standartlarına uyğun olaraq başa düşülən ədalət mühakiməsinə çıxış konsepsiyası müzakirə edilir; 4-cü bölmədə qadınların ədalət mühakiməsinə çıxışının spesifik xüsusiyyətləri təhlil edir, 5-ci bölmədə isə hamı üçün ədalət mühakiməsinə çıxışın təmin edilməsində hökumətlərin rolunu təsvir edilir. Nəhayət, 6-cı bölmədə Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada ədalət mühakiməsinə inklüziv çıxışa ən çox yardımçı ola biləcək aspektlər təqdim edilir və müvafiq göstəricilər (indikatorlar) müzakirə olunur.

1. Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukraynada qadınların ədalət mühakiməsinə çıxışı qarşısındakı maneələr, hüquqi müdafiə vasitələri və qabaqcıl təcrübələr. AŞ, 2016.

# 2. Ədalət mühakiməsinə çıxış: anlayış

Hamı üçün ədalət mühakiməsinə çıxış imkanının olması əsas insan hüquqlarından biridir və bu baxımdan o, insan hüquqlarına dair beynəlxalq, eləcə də Avropa sənədlərində və standartlarında təsbit edilmişdir. Son onillikdə ədalət mühakiməsinə çıxış həm özü-özlüyündə əsas hüquq kimi, həm də inkişafın, demokratiyanın və qanunun aliliyinin mühüm elementi kimi, habelə yaşamaq hüququ, insan ləyaqətinə hörmət hüququ, siyasi həyatda hərtərəfli iştirak hüququ, ayrı-seçkiliyə və zorakılığa məruz qalmamaq hüququ da daxil olmaqla bütün digər mülki, sosial, siyasi və iqtisadi hüquqların həyata keçirilməsi aləti kimi ön plana çıxmışdır.

Ədalət mühakiməsinə çıxış geniş anlayışdır və istər prosessual, istərsə də nəticə yönümlü elementləri özündə daxil edilir. Həm Avropa Şurası, həm də insan hüquqlarının müdafiəsi üzrə Avropa hüquq sistemləri ədalət mühakiməsinə çıxış hüququnu təsbit edir. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsi ədalətli məhkəmə araşdırması hüququnu təsbit edir ki, buraya da ədalət mühakiməsinə çıxış haqqını ödəyə bilməyənlər üçün ödənişsiz hüquqi yardım hüququ daxildir. 13-cü maddə səmərəli hüquqi müdafiə vasitələri hüququnu təsbit edir. Üzv dövlətlərin ədalət mühakiməsi sistemlərini qiymətləndirən Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) ədalət mühakiməsinin keyfiyyətini və hakimlərin bacarıqlarını ədalət mühakiməsinə çıxışın əsas elementləri kimi müəyyən etmişdir.[2]

Qadınların ədalət mühakiməsinə çıxışına verilən anlayışlarda qadınlar üçün xüsusilə aktual olan və onların ədalət mühakiməsinə çıxışına təsir edən bir sıra aspektlər ətraflı əks olunur. Bunlara aşağıdakılar aiddir: hüquq bərabərliyinin mövcudluğu, mübahisələrin həllinin səmərəli və əlçatan mexanizmləri, habelə ədalət mühakiməsi orqanlarının hesabatlılığı.

BMT-nin İnkişaf Proqramı (BMT İP) qadınların ədalət mühakiməsinə çıxışını belə təsvir edir:

> "Hüquqların müdafiəsi, hakimiyyətdən sui-istifadə halları ilə mübarizə və münaqişələrin həlli üçün ədalətli, səmərəli, əlverişli və hesabatlı mexanizmlərə qadınların, xüsusən də yoxsul və əlverişsiz vəziyyətdə olan qruplardan olan qadınların çıxış imkanı. Buraya qadınların rəsmi və qeyri-rəsmi ədalət mühakiməsi sistemləri vasitəsilə ədalətli və dürüst hüquqi müdafiə vasitəsi axtarmaq və əldə etmək imkanı və qanun yaradıcılığı proseslərinə və institutlarına təsir etmək və bu proseslərdə iştirak etmək imkanı daxildir"[3].

Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW Komitəsi) 33 saylı Tövsiyəsində qeyd edilir ki,  qadınların ədalət mühakiməsinə çıxış imkanı aşağıdakıları əhatə edir:

- ədalətlilik, yəni qadınların maneəsiz olaraq ədalət mühakiməsinə çıxış əldə etmək və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyada (CEDAW) nəzərdə tutulmuş hüquqlarını tələb etmək imkanı;

2. Misal üçün bax: Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası, "Hakimlərin izolyasiyasının aradan qaldırılması – Hakimin bacarıq və səriştələrini təkmilləşdirmək, biliklərin mübadiləsini və əməkdaşlığı gücləndirmək və məhkəmə orqanlarının izolyasiyası ənənəsindən kənara çıxmaq üçün rəhbər prinsiplər". 2019-cu il nəşri; "Ədalət mühakiməsinin keyfiyyətinin ölçülməsi". 2016-cı il nəşri.
3. BMT İP, "Qadın və gender bərabərliyi məsələləri üzrə qurumlararası şəbəkənin (IANGWE) seçilmiş üzvlərinin ərazisində qadınların münaqişələr olmayan şəraitdə ədalət mühakiməsi fəaliyyətlərinə çıxış imkanının tədqiqi".

- əlçatanlıq – bu anlayış bütün ölkə ərazisində, o cümlədən kənd yerlərində və ucqar ərazilərdə məhkəmələrin və məhkəmə tipli orqanların mövcudluğunu nəzərdə tutur;
- çıxış imkanı – bu anlayış bütün ədalət mühakiməsi sistemlərinin qadınlar üçün təhlükəsiz, münasib qiymətli, fiziki cəhətdən əlçatan olmasını və qadınların ehtiyaclarına adaptasiya edilməsini və uyğun olmasını tələb edir;
- keyfiyyətlilik – bu anlayış digər elementlərlə yanaşı səriştəlilik, səmərəlilik, müstəqillik, qərəzsizlik və operativlik kimi elementləri, o cümlədən təsirli və səmərəli hüquqi müdafiə vasitələrinin təmin edilməsini özündə ehtiva edir;
- ədalət mühakiməsi sistemlərinin (sistemlərinin) hesabatlılığı.

Həqiqətən də, hamı üçün səmərəli olan ədalət mühakiməsinə çıxış anlayışı ədalət mühakiməsinə aparan yolun bütün elementlərini əhatə etməli, ədalət mühakiməsinə buraxılmama ilə nəticələnə biləcək mümkün "sualtı daşları" və boşluqları dəqiq göstərməlidir. Ədalət mühakiməsi zəncirinin hər bir halqasını təcəssüm etdirən bu cür elementlərə aşağıdakılar daxildir: beynəlxalq insan hüquqları standartlarına uyğun olaraq bütün vətəndaşlara hərtərəfli və bərabər hüquqların verilməsinə yönələn hüquqi baza; əhali arasında hüquqi maarifləndirmənin və hüquqi savadlılığın geniş yayılması; münasib qiymətə və keyfiyyətli hüquqi məsləhətlərin və hüquqi təmsilçiliyin, o cümlədən cinayət və mülki işlər üzrə hüquqi yardımın əlçatanlığı; mübahisələrin həlli üzrə əlçatan, münasib qiymətli, operativ, səmərəli, təsirli, qərəzsiz, korrupsiyasız və etibarlı, habelə beynəlxalq insan hüquqları standartlarına uyğun qayda və prosesləri tətbiq edən mexanizmlərin mövcudluğu; və məhkəmə qərarlarının icrası üçün səmərəli və qərəzsiz mexanizmlərin mövcudluğu.[4]




4. "BMT-Qadınlar" strukturu və Avropa Şurası, "Qadınların ədalət mühakiməsinə çıxışının qiymətləndirilməsi sistemi", 2016.

# 3. Ədalət mühakiməsinə çıxış: hüquqlara əsaslanan yanaşma

Bu hesabat ədalət mühakiməsinə çıxış anlayışının və onun tərkib elementlərinin hüquqlara əsaslanan yanaşma əsasında dərkini özündə əks etdirir. Hüquqlara əsaslanan yanaşma nöqteyi-nəzərindən, ədalət mühakiməsinə çıxış dedikdə "öhdəlik daşıyıcısının" (yəni ədalət mühakiməsini həyata keçirmək səlahiyyəti və vəzifəsi həvalə edilmiş qurumların) ədalət mühakiməsinə çıxışı təmin etmək qabiliyyəti və "hüquq sahiblərinin" (yəni ədalət axtarışında olmaq və ədalətə nail olmaq hüququ olan şəxslərin və qurumların) ədalət mühakiməsi xidmətlərinə çıxış əldə etmək yolu ilə öz hüquqlarını həyata keçirmək imkanları nəzərdə tutulur.[5]

Ədalət mühakiməsi orqanları ilə vətəndaşlar arasında münasibətləri xidmətlərin göstərilməsi baxımından deyil, hüquqların həyata keçirilməsi baxımından şərh edən bu yanaşma institusional hesabatlılığı və vətəndaşların imkanlarının artırılmasını önə çəkir. Beləliklə, ədalət mühakiməsi sistemlərinin insan hüquqlarına əsaslanan yanaşma əsasında qiymətləndirilməsi təkcə ədalət mühakiməsi xidmətlərinin mövcudluğunu və səmərəliliyini nəzərə almır; daha çox, onların keyfiyyətinin və nəzərdə tutulan benefisiarlara təsirinin diqqətlə qiymətləndirilməsini özündə ehtiva edir. Məsələn, institusional potensialı qiymətləndirən tədqiqatlar təkcə hakimlərin sayını və onların texniki biliklərini deyil, həm də onların insan hüquqları standartlarına uyğun ədalət mühakiməsini həyata keçirmək bacarıqlarını nəzərə alır. Ədalət mühakiməsi sistemlərinin insan hüquqlarına əsaslanan yanaşma əsasında qiymətləndirilməsi və ölçülməsi çərçivələrinin digər əsas xüsusiyyəti ondan ibarətdir ki, məsələn, vətəndaşların ədalət mühakiməsinə ehtiyacları və ədalət mühakiməsi orqanları barədə düşüncələri, o cümlədən bu orqanlara inamı, ədalət mühakiməsi xidmətlərinin keyfiyyəti və istifadəçilərin məmnunluq səviyyəsi barədə məlumatlara xüsusi diqqət yetirilir.

5. Bu hesabatda aparılan ədalət mühakiməsinə çıxışın və onun tərkib elementlərinin təhlili hüquqlara əsaslanan yanaşmaya söykənir, həmin yanaşma isə fərdlərin ədalət mühakiməsi orqanları vasitəsilə şikayətlərini həll etmək hüququna malik olduqları anlayışının dərkinə əsaslanır. Bu baxımdan biz ədalət mühakiməsi sisteminin əlçatanlığının qiymətləndirilməsi üçün mühüm əhəmiyyət daşıyan ədalət mühakiməsi zəncirinin elementlərini aşağıdakı kimi müəyyən edirik: ədalət mühakiməsi zəncirinin fərdlərin ədalət mühakiməsinə çıxış hüququnu həyata keçirmək imkanlarına ən çox təsir edən halqaları və ya komponentləri. Bu elementlərin mövcud olmaması və ya düzgün işləməməsi ədalət mühakiməsinə çıxış üçün əsas maneə kimi müəyyən edilir və eynilə, düzgün təşkil və tətbiq edildikdə onlar ədalət mühakiməsi sisteminin əlçatanlığını artıran ən yaxşı təcrübə nümunələri təşkil edir. Misal üçün bax: BMT İP (2004); "BMT-Qadınlar" strukturu; Dünya qadınlarının tərəqqisi – Ədalət axtarışında (2011); Dünya Bankı, Dünya İnkişaf Hesabatı, 2012, Gender bərabərliyi və inkişaf (2011); Qanunun aliliyi təşəbbüsü (2012).

# 4. Qadınların ədalət mühakiməsinə çıxışının spesifik xüsusiyyətləri

## Qadınların ədalət mühakiməsinə çıxışını təşviq edən hüquqi və siyasi bazanın elementləri

Qadın və kişilərin qanun qarşısında bərabərlik və mübahisələrin həlli mexanizmlərinə bərabər çıxış hüququ universal insan hüququ kimi ədalət mühakiməsinə çıxışı təsbit edən bir sıra beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Bu kontekstdə Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı, Avropa Şurası və Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsi daxil olmaqla, beynəlxalq qurumların bir sıra araşdırmaları və hesabatları ədalət mühakiməsinə çıxış əldə etmək istəyən qadınların üzləşdiyi unikal çətinlikləri önə çəkir. Bu maneələri iki fərqli kateqoriya üzrə qruplaşdırmaq olar, bunlar qadınların yaşadığı reallığın müxtəlif aspektlərinə əsaslansa da, müəyyən dərəcədə üst-üstə düşərək kişilərlə müqayisədə qadınların ədalət mühakiməsinə çıxış imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Bunlar institusional maneələr və sosial, iqtisadi və mədəni maneələrdir.

### İnstitusional maneələr

Bu maneələr qadınların ədalət mühakiməsinə çıxışını təşviq edən əlverişli hüquqi və institusional mühitin olmamasından irəli gəlir. Bunlara qadınların kişilərlə eyni hüquqlarını inkar edən ayrı-seçkilik xarakterli qanunların və gender amilini nəzərə almamaqla qadınlara mənfi təsir göstərən qanunların mövcudluğu; hakimlər, prokurorlar və hüquq-mühafizə orqanlarının əməkdaşları da daxil olmaqla ədalət mühakiməsi sahəsinin peşəkarları arasında, habelə vəkillər, o cümlədən hüquqi yardım xidmətləri göstərənlər arasında qərəzli münasibətin olması; mülki işlərdə və qadınlara qarşı zorakılıq və məişət zorakılığı hallarında hüquqi yardıma çıxışın məhdudlaşdırılması; qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə üçün müvafiq hüquqi bazanın olmaması və qanunlar mövcud olduqda, məhkəmə sistemlərinin onları həyata keçirmək və icra etmək qabiliyyətinin aşağı olması aiddir. Bundan əlavə, resurslar çox vaxt qeyri-bərabər bölüşdürülür və məhkəmə sisteminin qadınlar üçün xüsusi maraq kəsb edən əsas sahələrini, məsələn, ailə və əmək hüququna aid işləri əhatə edən ödənişdən azad proqramları və şəxsiyyət vəsiqələrinin, doğum və ya ölüm şəhadətnamələrinin alınması kimi prosedurları əhatə etmir.

Bir çox institusional maneələr gender amilindən başqa digər amillərdən də qaynaqlanır: yüksək xərclər və prosedurların uzunluğu, ədalət mühakiməsinə çıxışın coğrafi cəhətdən məhdudluğu; tərcümə xidmətlərinin olmaması və hüquqi biliklərin və məlumatlılığın olmaması həm qadınlara, həm də kişilərə təsir göstərir. Bununla belə, sosial və institusional maneələrin birləşməsi qadınların (gəlir və təhsil səviyyələri müxtəlif olan, müxtəlif yaş və etnik qruplara aid olanların) ədalət mühakiməsinə çıxış əldə etmək istəyərkən üzləşdiyi çətinliklərin aşılmasını mürəkkəbləşdirir və qadınları məhkəmə prosesi zamanı daha həssas duruma salır.

### Dərin kök salmış gender normaları da qadınların ədalət mühakiməsinə çıxışına müxtəlif yollarla maneə yaradır

Ənənəvi gender rollarının qadınların cəmiyyətdəki mövqeyini müəyyən etdiyi hallarda qadınların ədalət mühakiməsinə müraciət etməsi utandırıcı hesab edilir və hüquqlarının pozulmasını qanuni vasitələrlə aradan qaldırmağa çalışan qadınlar öz icmaları tərəfindən izolyasiya riski ilə üzləşirlər. Qadınların məişətdəki ənənəvi vəzifələrindən qaynaqlanan vaxt qıtlığı o deməkdir ki, onların evdən kənarda şəxsi işləri ilə məşğul olmaq üçün vaxtları çox az olur və ya heç olmur. İqtisadi bərabərsizliklər ədalət

mühakiməsinə çıxış qarşısındakı maneələri artırır, buraya, məsələn, prosedurların yüksək xərcləri aiddir. Həqiqətən də, ödənişsiz hüquqi yardım alma və ya ödənişdən azad edilmə proqramlarına daxil edilmə meyarlarına uyğun olanların seçilməsində ərizəçinin əldə etdiyi real gəlirin nəzərə alınmaması mahiyyət etibarı ilə orta hesabla ev təsərrüfatları gəlirlərinin kişilərə nisbətən daha kiçik hissəsinə çıxışı olan (əgər belə çıxış imkanı varsa) qadınlara qarşı ayrı-seçkilik yaradır. Şəxsi nəqliyyat vasitələri əldə etmə imkanının məhdudluğu, savadlılıq və təhsil səviyyəsinin aşağı olması qadınların kişilərlə müqayisədə ədalət mühakiməsinə çıxışına mənfi təsir göstərən elementlərdir. Aşağıdakı 2-ci şəkildə "situativ hallar" kimi müəyyən edilən bu elementlər qadınların hüquqlarını və ədalət mühakiməsinə çıxışını daha da məhdudlaşdıran yaş, irq, analıq və ailə vəziyyəti kimi şəxsi xarakteristikalarla yanaşı göstərilir.




Şəkil 2 Qadınların ədalət mühakiməsinə çıxışına sosial, mədəni və iqtisadi maneələr

Beləliklə, qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirmək məqsədi daşıyan müdaxilələrin uğurlu olması üçün həmin müdaxilələr həyata keçirilərkən qadınların ədalət mühakiməsinə olan konkret tələbatlarını ödəməyə cəhd etdikləri zaman qarşılaşdıqları görünən və görünməyən maneələr nəzərə alınmalıdır. Qadınların ədalət mühakiməsinə çıxışını təmin edən əlverişli mühitin əsas elementlərinə xüsusilə aşağıdakılar daxildir: gender amilini nəzərə alan hüquqi baza, qadınların hüquqi maarifləndirilməsi və hüquqi savadlılığı, əlverişli və keyfiyyətli hüquqi məsləhətlərə və hüquqi təmsilçiliyə çıxış imkanı, məhkəmə sisteminin institusional potensialı, gender qərəzliliyindən azad olan ədalətli prosedurlar, xüsusi məhkəmələr və prosedurlar, səmərəli hüquqi müdafiə vasitələri və icra prosedurları, resursların bölgüsündə gender amilinin nəzərə alınması.

# 5. Qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsində hökumətlərin rolu

Qadınların ədalət mühakiməsinə bərabər əsasda çıxışının təmin edilməsi Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyasının beş prioritet mövzusundan biridir. Hamının ədalət mühakiməsinə bərabər çıxış hüququ Avropa Şurasının dörd əsas müqaviləsi ilə təsbit edilmişdir: İnsan hüquqları haqqında Avropa Konvensiyası; Avropa Sosial Xartiyası; İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya və Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Konvensiya (İstanbul Konvensiyası).[6]

İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 6-cı maddəsinin 1-ci bəndi üzv dövlətlərin ədalətli məhkəmə araşdırması və səmərəli hüquqi müdafiə vasitələri hüququnu təmin etmək öhdəliyini müəyyən edir. Konvensiyanın 14-cü maddəsi və 12 saylı Protokolu Konvensiya ilə müəyyən edilmiş hüquqların tətbiqi zamanı istənilən ayrı-seçkiliyi, o cümlədən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi qadağan edir. Avropa Sosial Xartiyası (ASX) ədalətli məhkəmə araşdırması və hüquqi müdafiə hüququnu təmin edir və cinsi ayrı-seçkilik daxil olmaqla istənilən əsasda ayrı-seçkiliyi qadağan edir.

İstanbul Konvensiyası dövlətlərin üzərinə qadınların ədalət mühakiməsinə çıxışını təşviq etmək, o cümlədən gender stereotiplərini aradan qaldırmaqdan ötrü sosial və mədəni modellərdə dəyişikliklərin təşviqi üçün tədbirlər görmək; zorakılıq qurbanları ilə işləyən mütəxəssislər üçün qurbanların ehtiyacları, hüquqları və bərabərlik mövzusunda adekvat təlimləri təmin etmək; habelə adekvat hüquqi məlumatları təmin etmək kimi məcburi öhdəliklər qoyur. Konvensiyada zorakılıq qurbanı olan qadınlar ön plana çəkilsə də, onun müəyyən etdiyi standartlar məşğulluq və ailə hüququ kimi qadınlar üçün xüsusi maraq doğuran digər sahələrdə də tətbiq edilməlidir.[7]

CEPEJ 47 üzv dövlətdə məhkəmə sistemlərinin dövri qiymətləndirilməsini həyata keçirir. Bu qiymətləndirmələr aşağıdakı göstəricilər (indikatorlar) üzrə aparılır: məhkəmələrdə və prokurorluq xidmətlərində gender bərabərliyi, hüquqi yardıma çıxış, hakimlər və prokurorlar üçün məişət zorakılığı və cinsi zorakılıqla bağlı təlim, cinsi zorakılıq və zorlama qurbanları üçün əlverişli şəraitin mövcudluğu. Hökumətlər tərəfindən toplanan bu məlumatlar səmərəli və keyfiyyətli məhkəmə sistemlərinin standartları haqqında məlumatlılığı artırır və dövlətlərin aradan qaldırmalı olduğu mümkün boşluqları üzə çıxarır.[8] CEPEJ həmçinin ədalət mühakiməsinin şəffaflığını, keyfiyyətini və səmərəliliyini artırmaq üçün rəhbər prinsipləri və standartları təqdim edir.

Avropa İnsan Hüquqları Məhkəməsi üzv dövlətlərin hökumətlərini ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına görə, o cümlədən cinsi ayrı-seçkiliyə görə İHAK-ın 6 və 14-cü maddələri və 12 saylı Protokolu əsasında məsuliyyətə cəlb etməklə ədalət mühakiməsinə çıxış imkanına dair Avropa standartlarını müdafiə edir.[9]

6. Şaziya Çoudri, "Qadınların ədalət mühakiməsinə çıxışı – hüquqşünaslar üçün bələdçi", AŞ, 2018.
7. Şaziya Çoudri, yuxarıdakı mənbə, 13.
8. Bax: https://www.coe.int/en/web/cepej/gt-qual-tools.
9. Avropa İnsan Hüquqları Məhkəməsinin gender bərabərliyinə dair bülleteni, Fevral 2021. Sayt: https://www.echr.coe.int/Pages/home.aspx?p=press/factsheets&c=.

İnsan hüquqları ilə bağlı BMT çərçivəsində qəbul edilmiş sənədlərə gəlincə, CEDAW Komitəsinin 33 saylı tövsiyəsi dövlətlər üçün ədalət mühakiməsi sistemində ayrı-seçkilik xarakterli qanunların, stereotiplərin və gender qərəzliliyinin aradan qaldırılması, təhsil və maarifləndirmə, hüquqi yardım və hüquqi yardıma çıxış imkanları ilə bağlı öhdəliklər yaradır.

Nəhayət, "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik" adlanan BMT sənədi hökumətləri qadınların və kişilərin ədalət mühakiməsinə çıxışını təmin etmək vəzifəsinin daşıyıcıları olaraq insan hüquqlarının həyata keçirilməsində və hamı üçün ədalət mühakiməsinə bərabər çıxışın təmin edilməsində əsas iştirakçılar olmağa çağırır.[10]

10. Birləşmiş Millətlər Təşkilatının A/RES/70/1 saylı qətnaməsinin preambulası, səh. 1 və Dayanıqlı İnkişaf Məqsədləri, 16-cı məqsəd, Hədəf 16.3.

# 6. Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada qadınların ədalət mühakiməsinə çıxış imkanlarının qiymətləndirilməsi sisteminin icmalı

Qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirməyə yönələn səmərəli müdaxilələrin əsas komponenti onun əsas elementləri haqqında etibarlı məlumatların olmasıdır. Şərq Tərəfdaşlığı ölkələrinin ədalət mühakiməsinə inklüziv çıxış imkanlarını genişləndirmək səylərini dəstəkləməyə yönələn cari layihə kontekstində bu bölmədə qadınların ədalət mühakiməsinə çıxışının vəziyyəti haqqında məlumatların toplanması üçün ardıcıl tövsiyələr təqdim edilir. Aşağıda sadalanan sahələr, iştirakçı dövlət qurumları tərəfindən təqdim edilən məlumatlara əsaslansaq, qadınların ədalət mühakiməsinə çıxışı imkanlarını genişləndirmək üçün mühüm əhəmiyyət kəsb edir.

## I. Ədalət mühakiməsinə üz tutan qadınların yolu

a. Qadınların ədalət mühakiməsi sahəsində qarşılaşdıqları əsas problemlər

b. Mübahisələrin həllində üstünlük verilən mexanizmlər

c. Qadınların ədalət mühakiməsinə müraciətinin nəticələri

Qadınların və qızların ədalət mühakiməsinə çıxış imkanlarının hərtərəfli başa düşülməsi ədalət mühakiməsinə üz tutan qadınların yolunun xəritəsini tərtib etməkdən başlamalıdır. Qadınların ədalət mühakiməsi sahəsində qarşılaşdıqları əsas problemlərin nədən ibarət olduğunu və qadınların onlarla bağlı nə etdiklərini öyrənmək ədalət mühakiməsi sisteminin əlçatanlığını artırmaq üçün hər hansı gələcək siyasətin hazırlanması səylərini kontekstləşdirməyə və istiqamətləndirməyə kömək edir. Qadınlar ədalət axtarışında ikən əslində haraya gedirlər? İxtisaslaşdırılmış məhkəmələr və bu sahəyə aid olan digər orqanlar öz vəzifələrini yerinə yetirirlərmi, yoxsa qadınlar onlardan yan keçirlər? Qadınlar mübahisələrin həllində alternativ, qeyri-məhkəmə üsullarına üstünlük verirlərmi? Qadınlar zorakılığa qarşı müdafiə və vasitələr axtarmaq üçün nə edirlər? Bu və digər oxşar suallara cavab vermək qadınların ədalət mühakiməsi ilə təmasda olarkən yaşadığı təcrübəni düzgün başa düşmək üçün vacibdir – əlavə qiymətləndirmə və müdaxilələrin qadınlar üçün ən uyğun olan məsələləri önə çəkməyə və onların ədalət mühakiməsinə çıxışını məhdudlaşdıran mümkün çatışmazlıqları səmərəli şəkildə aradan qaldırmağa imkan verəcəkdir.

**Siyasətin hazırlanmasında gender amilinin nəzərə alınması.** Qadınların ədalət mühakiməsinə çıxışı üçün əlverişli mühit yaratmağa yönələn siyasət qadınların real ehtiyaclarına cavab verməli və onların yaşadığı təcrübələri əks etdirməlidir. Beləliklə, qadınların ədalət mühakiməsinə gedən yollarına işıq salmaq məqsədi daşıyan məlumatların toplanması üçün ilk növbədə qadınların ədalət mühakiməsi ilə təmasda olarkən yaşadığı təcrübələrə diqqət yetirməlidir. Məlumat mənbələri sırasına bütövlükdə əhali və istifadəçilər arasında aparılan sorğular, habelə qadınlardan və qadın assosiasiyalarından ibarət hədəf qrupları daxil edilməlidir. Qaldırılmış işlərə və onların nəticələrinə dair inzibati məlumatlar və ekspertlərlə müsahibələr məlumatların dolğunlaşdırılması və bölgüsü üçün faydalı olar.

## II. İnstitusional potensial

a. Qadınların hüquq və məhkəmə peşələrində iştirakı

b. Ədliyyə və hüquq sahəsinin peşəkarları üçün gender üzrə təlim

c. İnstitusional mexanizmlər və koordinasiya potensialı

d. Hüquq/ədliyyə/polis orqanları peşəkarlarına gender üzrə təlim keçilməsi

e. Gender baxımından neytral olan və gender amilini nəzərə alan qanunların tətbiqi

f. Büdcənin gender baxımından təhlili

"Potensial" dedikdə ədalət mühakiməsi sisteminin vətəndaşların ədalət mühakiməsinə olan tələbatlarına nə dərəcədə cavab vermək iqtidarında olması nəzərdə tutulur. Buraya ədalət mühakiməsi sahəsinin peşəkarları arasında gender bərabərliyi; ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar olan institusional mexanizmlər, o cümlədən hüquq-mühafizə orqanları və səhiyyə sektoru ilə onların koordinasiya potensialının səviyyəsi; məhkəmə personalının tərkibi və hazırlıq səviyyəsi; ədalət mühakiməsi peşəkarlarının ayrı-seçkiliyə yol vermədən və insan hüquqları standartlarına uyğun olaraq inklüziv ədalət mühakiməsini təmin etmək bacarığı; qanunların icra edilməsi; habelə büdcənin tərtibi və resursların bölüşdürülməsi daxildir – bütün bunlar ədalət mühakiməsi ehtiyaclarını səmərəli şəkildə həll etmək və ayrı-seçkilik olmadan ədalət mühakiməsinə çıxış hüququnu həyata keçirmək üçün ədalət mühakiməsi sisteminin imkanlarını müəyyən edən elementlərdir.

**a. Qadınların hüquq və məhkəmə peşələrində iştirakı** inklüziv və səmərəli ədalət mühakiməsi sistemlərinin ayrılmaz xüsusiyyətidir. Həqiqətən də, "[...] qadınların ədalət mühakiməsi sistemində iştirakı […] bu sistemin xidmət etdiyi cəmiyyəti əks etdirməsi üçün vacibdir. Həmçinin qadın hakimlər […] qərəzsiz ədalət mühakiməsi sisteminə töhfə verməklə […] qanunların (o cümlədən qadınların və qızların ədalət mühakiməsinə çıxışına dair qanunların) həyata keçirilməsindəki rolları ilə qanunun aliliyinin möhkəmlənməsinə yardım edə bilərlər".[11] Hüquq və məhkəmə peşələrində müxtəliflik özü-özlüyündə müsbət element olmaqla yanaşı, ədalət axtarışında olan qadınların da bundan faydalana biləcəyini göstərən əlamətlər vardır. Baxmayaraq ki "sadəcə qadın hüquqşünasların mövcudluğu qadınların rəsmi qurumlar vasitəsilə ədalət mühakiməsinə nail olacaqlarına zəmanət vermir, […] bu, ədalət mühakiməsi sektorunu qadınlar üçün daha əlçatan edir".[12] Tədqiqatlar göstərir ki,[13] ədalət mühakiməsi sahəsində qadın peşəkarların olmaması qadınların ədalət mühakiməsi sisteminə müraciət etməsi qarşısında güclü maneədir. Bu, xüsusilə zorlama və qadınlara qarşı zorakılıq kimi həssas hallara aiddir.[14] İnklüziv ədalət mühakiməsi sistemlərinin əsas elementi olaraq, qadınların hüquq və məhkəmə peşələrində iştirakı bərabərliyin təmini və ayrı-seçkiliyin yolverilməzliyi kimi institusional ənənəni yaratmaq üçün ədalət mühakiməsi sahəsinin bütün peşəkarlarına yönələn maarifləndirmə və təlim fəaliyyətləri ilə sıx əlaqələndirilməlidir.

**b. Ədliyyə və hüquq sahəsinin peşəkarları üçün gender üzrə təlim.** Məhkəmə sistemində gender amilini nəzərə alan praktikaların mövcudluğu qadınların və qızların ədalət mühakiməsi sahəsində xüsusi ehtiyaclarına sistemin cavab vermək qabiliyyətinə əhəmiyyətli dərəcədə kömək edir. Qadınların ədalət mühakiməsi sistemində xidmətə qəbul edilməsi və xidməti işdən ayrılmadan təlim alması qadınların ədalət mühakiməsi ilə təmasda olarkən yaşadıqları təcrübənin spesifikliyini ciddi şəkildə başa düşmək və vəkillər, hakimlər, prokurorlar, müstəntiqlər, məhkəmələrin və hüquq-mühafizə orqanlarının əməkdaşları arasında kök salmış qərəzliliyi aradan qaldırmağa kömək etmək üçün vacibdir. Hakimlərin və ədalət mühakiməsi sahəsinin digər peşəkarlarının seçilməsində/təyin edilməsində və vəzifədə irəliyə çəkilməsində gender mülahizələri, gender məsələlərinə aid olan işlərin necə aparılmalı olmasına dair təlimatların yer aldığı direktivlərin mövcudluğu, məhkəmə sisteminin rəhbər orqanları daxilində gender məsələləri üzrə koordinatorların təyin edilməsi və daxil olan və bağlanmış işlər də daxil

11. BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC), 2013. 2015-ci ildən sonrakı İnkişaf Gündəliyində təhlükəsizliyə və ədalətə görə cavabdehlik. Nyu-York: UNODC, s. 59.
12. Qadın və Uşaqların Vəziyyətinin Araşdırılması üzrə Hüquqi Tədqiqatlar Fondu (WCLRF), 2008. Qadınların ədalət mühakiməsinə çıxışı: problemlər və maneələr, http://www.wclrf.org.af/wp-content/uploads/2013/09/Women-Access-To-Justice-Final.pdf, s. 28.
13. WCLRF, yuxarıdakı mənbə; Dünya Bankı, 2012, yuxarıdakı mənbə.
14. Hindistanda yalnız qadınlardan ibarət olan polis bölmələri qadınların zorakılıq, o cümlədən cinsi zorakılıq halları barədə məlumat verməyə meylliliyinin artmasında uğura nail olub. Bax: Dünya Bankı, 2012, yuxarıdakı mənbə.

olmaqla ayrı-ayrı işlər üzrə məlumatların cins əlamətinə görə bölgü aparılmaqla müntəzəm toplanması, apellyasiya şikayətlərinin sayına və istifadəçi məmnunluğuna dair məlumatların əldə edilməsi – bütün bunlar məhkəmə orqanlarının işində gender mülahizələrinin "institusionallaşmasına" kömək edir. Avropa Şurasının "Hakimlər və prokurorlar üçün qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə təlim vəsaiti"nin ölkələr üzrə bölməsinin Ermənistana aid hissəsində qeyd edildiyi kimi,[15] hakimlərə və ədalət mühakiməsi sahəsindəki digər peşəkarlara ədalət mühakiməsi sistemində gender məsələləri ilə bağlı əsas məlumatların təqdim edilməsi gender amilini nəzərə alan və qərəzlilikdən azad olan ədalət mühakiməsi xidmətlərinin göstərilməsi üçün mühüm əhəmiyyət daşıyır: "Hakimlərin və xüsusən də prokurorların ölkədə məişət zorakılığının yayılması ilə bağlı aydın təsəvvürə malik olması mühüm əhəmiyyət kəsb edir. Bu, hazırkı problemlərə səmərəli reaksiya göstərilməsi, gizli cinayətlərin üzə çıxarılması, təqsirkarların məsuliyyətə cəlb edilməsi, qurbanların dəstəklənməsi və təhlükəsizliyinin təmin edilməsi, hüquqpozmaların düzgün qiymətləndirilməsi və məişət zorakılığının səviyyəsinin aşağı salınması üçün onların zəruri tədbirlər görməsinə imkan verəcəkdir".

**c. İnstitusional mexanizmlər və koordinasiya potensialı.** Bir çox nazirliklər, idarələr, agentliklər və digər institusional qurumlar ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edirlər. Fəaliyyətlərində gender amilini nəzərə almalı olan bu cür təsisatların fəaliyyətinin izlənməsi qadınların ədalət mühakiməsinə çıxış imkanlarının genişləndirilməsi işində iştirak edən əsas qurumları müəyyən etmək üçün xüsusilə vacibdir. Bu cür qurumların fəaliyyətlərini öz aralarında və digər qurumlarla əlaqələndirmək bacarığı həm də qadınların ədalət mühakiməsinə olan tələbatlarını sistemin təmin etmək qabiliyyətinin göstəricisidir. Həqiqətən də, ədalət mühakiməsi və təhlükəsizlik sektorundakı siyasət mühitinə dair "BMT-Qadınlar" strukturunun icmalında qeyd edildiyi kimi,[16] sektorlararası koordinasiyanın olmaması ədalət mühakiməsi sahəsində siyasət və ya strategiyaların həyata keçirilməsinə mane olan elementlərdən biridir.

**d. Gender baxımından neytral olan və gender amilini nəzərə alan qanunların tətbiqi.** İnstitusional potensialın mühüm, amma çox vaxt nəzərdən qaçırılan ölçü meyarı ədalət mühakiməsi sisteminin gender bərabərliyini təşviq edən və qadınların hüquqlarını müdafiə edən qanunları həyata keçirmək qabiliyyətidir. Həqiqətən də, hətta ayrı-seçkilik yaradan qanunların ləğv edildiyi və gender tələblərinə cavab verən qanunvericiliklə əvəz olunduğu ölkələrdə belə, qanunların icrasında bəzən qeyri-bərabərlik olur ki, bu da ədalət mühakiməsi sahəsinin peşəkarları arasında məlumatlılığın aşağı olması ilə əlaqədardır.

**e. Büdcənin gender baxımından təhlili.** Avropa Şurası büdcənin gender mülahizələri nəzərə alınmaqla tərtib edilməsini "büdcənin tərtibi prosesində gender amilinin tətbiqi" kimi və "büdcələrin gender əsaslı qiymətləndirilməsi, o cümlədən büdcə prosesinin bütün səviyyələrində gender mülahizələrini özündə cəmləşdirən və gender bərabərliyinin təşviqinə yönələn gəlir və xərclərin restrukturizasiyası" kimi müəyyən edir".[17]

Ədalət mühakiməsi sisteminin əlçatanlığını qiymətləndirərkən büdcə tərtibində gender amilinin nəzərə alınıb-alınmadığına diqqət yetirilməsi büdcələrin gender baxımından neytral olub-olmadığının müşahidəsini aparmaqla təmin edilir. Hökumətlərin gəlirləri necə artırması və resursları necə bölüşdürməsi isə hansı siyasət və prioritetlərin seçildiyini əks etdirir ki, bu da qadınlara və kişilərə müxtəlif yollarla təsir göstərə bilər. Dövlət büdcəsi tərtib edilərkən resursların yenidən bölüşdürülməsi, o cümlədən müxtəlif xidmət və proqramların maliyyələşdirilməsi fərdlərə təsir göstərir. Beləliklə, büdcənin tərtibi insan hüquqları da daxil olmaqla hər hansı hüquqların həyata keçirilməsində bərabərliyi təmin etmək və ayrı-seçkiliyin qarşısını almaq (və yaxud əksinə, bunları əngəlləmək) üçün güclü siyasət alətidir.[18] CEDAW Komitəsi tərəfindən birbaşa qeyd edilməsə də, büdcə tərtibi hökumətlərin ayrı-seçkiliyin yolverilməzliyini, bərabərliyi və iştirakçılığı təmin etmək və zərərli gender stereotiplərinə əsaslanan qərəzlilik və təcrübələri aradan qaldırmaq öhdəliklərini yerinə yetirmələri üçün mühüm alətdir. CEDAW Komitəsinin qadınların ədalət mühakiməsinə çıxışı ilə bağlı 33 saylı tövsiyəsinin 18-ci maddəsində ədalət mühakiməsinin keyfiyyətinin təminatları sırasında müttəhim, şahid və məhbus qadınlar üçün müdafiə tədbirlərinin səmərəliliyini təmin etmək üçün büdcə vəsaitlərinin və resursların ayrılması tələbi də yer alır. 39-cu maddədə Komitə iştirakçı dövlətlərə "ədalət mühakiməsi sistemlərinin bütün tərkib hissələrinə, o cümlədən ixtisaslaşdırılmış məhkəmələrə, məhkəmə tipli orqanlara və inzibati orqanlara, mübahisələrin

15. https://rm.coe.int/training-manual-for-judges-and-prosecutors-on-ensuring-women-s-access-/1680764286.
16. Birləşmiş Millətlər Təşkilatı, "Münaqişələrin qarşısının alınması, ədalət mühakiməsi sisteminin transformasiyası, sülhün təmin edilməsi: Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsinin icrasına dair qlobal araşdırma".
17. Avropa Şurası, "Büdcənin gender amili nəzərə alınmaqla tərtib edilməsi: praktik tətbiqetmə üçün vəsait", aprel 2009-cu il.
18. UNIFEM, "Büdcə tərtibində qadın hüquqlarının nəzərə alınması – Hökumətlərin tərtib etdiyi büdcələrin CEDAW tələblərinə uyğunluq baxımından monitorinqi", 2008, s. 2.

alternativ həlli mexanizmlərinə, milli insan hüquqları institutlarına və ombudsman idarələrinə adekvat büdcə yardımı göstərilməsini" tövsiyə edir.

Həqiqətən də, qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirmək və hüquqlarının müdafiəsini gücləndirmək üçün, eləcə də hüquqi yardım xidmətləri və ödənişsiz yardım proqramları üçün, habelə hakimlərə təlim proqramlarının və digər proqramların keçilməsi üçün və xidmətlərin keyfiyyətini və səmərəliliyini təmin etmək üçün, o cümlədən məişət zorakılığı və qadınlara qarşı zorakılıqla mübarizə sahəsində hüquqi yardım göstərən mütəxəssislər, xüsusi məhkəmələr və bölmələr, proqramlar və mexanizmlər üçün resursların təmin edilməsindən ötrü büdcənin hərtərəfli düşünülmüş şəkildə tərtib edilməsinə ehtiyac var.

**Siyasətin hazırlanmasında gender amilinin nəzərə alınması.** Potensialın artırılmasına yönələn səmərəli siyasət tədbirləri təklif (ədalət mühakiməsi sisteminin ayrı-seçkilik olmadan ədaləti təmin etmək üçün faktiki potensialı) və tələb (ədalət mühakiməsi orqanlarına münasibətdə qadınların ehtiyacları, eləcə də ədalət mühakiməsi fəaliyyətinin nəticələri və qadınlara təsiri) aspektlərini nəzərə almalıdır. Bundan əlavə, məhkəmə orqanlarının potensialı və gender amilini nə dərəcədə nəzərə almaları müəyyənləşdirilərkən həm obyektiv, həm də subyektiv cəhətlərin nəzərə alınması vacibdir. Vəkillərin/hakimlərin/məhkəmə işçilərinin/polislərin sayı və peşəkarlıq səviyyəsi barədə cinslər üzrə bölünmüş ayrı-ayrı məlumatlar ədalət mühakiməsi sistemlərinin müxtəliflik və reprezentativlik dərəcəsinə işıq sala bilər. Gender amilini nəzərə alan təlim proqramları, habelə ədalət mühakiməsi orqanlarında gender amilinin nəzərə alınması praktikasının mövcudluğu haqqında məlumatlar inklüziv və gender amilini nəzərə alan məhkəmə xidmətlərinin göstərilməsinə yönələn səylərin və fəaliyyətlərin səviyyəsini izləməyə kömək edir. Hərtərəfli institusional təhlil, eləcə də koordinasiya mexanizmlərinin mövcudluğuna dair məlumatlar ədalət mühakiməsi orqanlarının və gender mexanizmlərinin potensialını qiymətləndirməyə imkan verir.

Məhkəmə orqanlarının praktikada vətəndaşlar üçün inklüziv ədaləti təmin edib-etmədiyini öyrənmək üçün toplanmalı məlumatlar sırasına istifadəçilər arasında məmnunluq sorğuları, vətəndaş cəmiyyəti təşkilatları və ədliyyə orqanlarının nümayəndələri ilə müsahibələr və gender amilini nəzərə alan qanunvericiliyin icrasının monitorinqi üçün ayrı-ayrı işlərə aid məlumatlar daxil edilməlidir.

Nəhayət, büdcənin tərtibində gender amilinin nəzərə alınmasını təşviq etməyə yönələn siyasət büdcənin və xərclərin tərtibinin müxtəlif aspektlərinə, o cümlədən aşağıdakılara həsr olunan tədqiqatlara əsaslanmalıdır: 1) büdcə tərtib edilərkən qadınların ədalət mühakiməsinə çıxışının əsas elementlərinin əhatə edilməsi (ədalət mühakiməsi sahəsinin peşəkarları üçün gender məsələləri üzrə təlim, məsələn, qadınlar üçün ödənişsiz hüquqi yardım və təmsilçilik, onların rüsumlardan azad edilməsi, xüsusi məhkəmələrin və bölmələrin mövcudluğu) üçün resursların lazımi şəkildə ayrılmasının təmin edilməsi; 2) resursların nəzərdə tutulan benefisiarlara çatmasına əmin olmaq üçün xərclərin izlənməsi; 3) ayrılan resursların insan hüquqları standartlarına uyğun olaraq ayrı-seçkilikdən azad, gender tələblərinə uyğun nəticələr verib-vermədiyini müəyyən etmək üçün benefisiarların qiymətləndirilməsi; 4) qadınların və kişilərin ödənişsiz hüquqi yardıma çıxışı kimi göstəricilərdən istifadə etməklə və məlumatları cinslər üzrə bölməklə aparılan kəmiyyət tədqiqatları.

## III. Keyfiyyətli və münasib qiymətli hüquqi məsləhətlərə və təmsilçiliyə çıxış

### a. Ədalət mühakiməsinin əlçatanlığı, keyfiyyəti, qiyməti və ədalət mühakiməsinə buraxılmaq üçün tələblər

### b. Hakimlər və hüquqşünaslar üçün gender təlimi

### c. Ünvanlı hüquqi yardım və məsləhət xidmətlərinin mövcudluğu

Şikayətlərini məhkəmə qaydasında həll etmək istəyənlər üçün ədalət mühakiməsi sisteminə baş vurmaq ciddi problem ola bilər ki, bu da vaxt və vəsait itkisinə və nəticədə məhkəmə yoluna üz tutmaqdan tamamilə imtina etməyə səbəb ola bilər. Məhkəmədə iddia qaldırmaq barədə qərar verməkdən tutmuş məhkəmənin seçilməsinə, ədalət mühakiməsi prosesi zamanı yardım və təmsilçiliyin təmin edilməsinə qədər ödənişsiz və ya münasib qiymətə hüquqi məsləhət və təmsilçiliyin əlçatan olması hamı üçün ədalət mühakiməsinə bərabər çıxış imkanını təmin edir və orta hesabla götürdükdə qadınlara kişilərdən daha çox təsir edən "imkanlar arasındakı bərabərsizliyi" potensial olaraq aradan qaldıra bilər. Xüsusilə, ünvanlı hüquqi yardımın göstərilməsi qadınların ədalət mühakiməsinə çıxışı imkanlarına müsbət təsir

göstərmiş, onların zorlama və ya zorakılıq halları barədə məlumat vermək və ya doğum, nikah və ya boşanma haqqında şəhadətnamə almaq imkanlarını artırmışdır.[19],[20] Bununla belə, həm cinayət, həm də mülki işlər üzrə hüquqi yardımı özündə ehtiva edən keyfiyyətli və münasib qiymətli hüquqi yardım və təmsilçilik nadir hallarda hamı üçün əlçatan olur. Hüquqşünaslar arasında qərəzli yanaşmalar və gender əsaslı ayrı-seçkilik praktikası onların qadınların hüquqi yardım və təmsilçilik ehtiyaclarını təmin etmək imkanlarını daha da məhdudlaşdırır.

**Siyasətin hazırlanmasında gender amilinin nəzərə alınması.** Vəkillərin haqqını ödəyə bilməyənlər üçün hüquqi məsləhət və təmsilçilik xidmətləri hökumət, fərdi qaydada çalışan vəkillər, vətəndaş cəmiyyəti təşkilatları və akademik təsisatlar da daxil olmaqla müxtəlif subyektlər tərəfindən təmin edilə bilər. Səmərəli siyasətin hazırlanmasında təkcə bu cür xidmətlərin mövcudluğuna deyil, həm də onların keyfiyyətinə, dəyərinə və onlara çıxış üçün irəli sürülən tələblərə diqqət yetirilməlidir. Xüsusilə, bu sahədə siyasəti hazırlayanlar hüquqi məsləhət və təmsilçilik xidmətlərinin göstərilməsi ilə məşğul olan vəkillərin və digər hüquq mütəxəssislərinin potensialını gücləndirən mexanizmlər hazırlamalı və onların gender əsaslı xurafat və qərəzlilikdən azad olmasını təmin etməlidirlər. Beləliklə, tələb olunan müdaxilələr gender məsələləri üzrə təlimləri, habelə hüquqi yardım və təmsilçilik xidmətləri göstərənlər üçün səmərəlilik və səriştəlilik standartlarının müəyyənləşdirilməsini özündə ehtiva etməlidir.[21] Bu proqramların hazırlanması üçün toplanmalı olan əsas məlumatlar istifadəçi məmnunluğunun səviyyəsi, hüquqi yardım və təmsilçilik xidmətləri göstərənlərə inam və onların xidmətlərindən istifadə edilməsi ehtimalı kimi informasiyaları özündə ehtiva edir ki, bunlar da ədalət mühakiməsinin tələb aspektinə yönələn faydalı göstəricilərdir. Digər tərəfdən, hüquqi yardım göstərənlərin sayı barədə cinslər üzrə bölünmüş inzibati məlumatlar, gender məsələləri və qadınların ədalət mühakiməsinə çıxışı qarşısındakı maneələr barədə onların anlayışı barədə informasiyalar, habelə maddi imkanı olmayanlara yardım göstərildiyi halların icmalı bu xidmətlərin faktiki əhatə dairəsini və operativlik dərəcəsini anlamaq üçün mühüm əhəmiyyət daşıyır. Həmçinin ödənişsiz hüquqi yardım və təmsilçilikdən istifadə meyarları haqqında məlumatlar onların qadınlar üçün faktiki əlçatanlığını anlamaq üçün vacibdir. Nəhayət, xüsusilə qadınlar üçün aktual olan hüquqi məsələlərə (məsələn, ailə hüququ, gender əsaslı zorakılıq) diqqət yetirən hüquqi məsləhət və təmsilçilik mərkəzlərinin/bölmələrinin mövcudluğu və keyfiyyəti barədə məlumatlar bu xidmətlərin qadınların və qızların ədalət mühakiməsinə olan konkret ehtiyaclarına adekvat cavab vermək qabiliyyəti barədə təsəvvür əldə etməyə imkan verir.

## IV. Qadınların hüquqları barədə məlumatlılığı və hüquqi savadlılığı

### a. Hüquqlar barədə məlumatlılıq

### b. Ədalət mühakiməsi ilə bağlı problemlərini həll etmələri üçün müraciət edə biləcəkləri məhkəmələr və mexanizmlər (hüquqi məsləhət və hüquqi təmsilçilik xidmətləri daxil olmaqla) barədə qadınların məlumatlılığı[22]

Öz hüquqlarını (və vəzifələrini) bilmək ədalət mühakiməsinə çıxışın ilk və əsas şərtidir, belə ki, o, şəxsin vəziyyəti hüquqi vasitələrlə (yəni "məhkəmə qaydasında") həll edilən bilən vəziyyət kimi düzgün xarakterizə etməsinə və beləliklə ədalətə nail olmasına imkan verir. Eynilə, insanların ədalət mühakiməsi sahəsindəki problemlərini həll etmələri üçün əlçatan olan məhkəmə orqanları və mexanizmlər haqqında bilgiləri, nə qədər ümumi şəkildə olsa belə, hüquqi problemləri ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmələri üçün önəmlidir. Gender baxımından savadlılıq səviyyələrində, iqtisadi resurslarda, vaxt imkanlarında və ailədəki və cəmiyyətdəki səlahiyyətlər dinamikasında fərqlər o deməkdir ki, çox vaxt qadın və qızların hüquqi şüur və savadlılıq səviyyəsi kişilərə nisbətən daha aşağı olur və bu onların öz problemlərini hüquqi vasitələrlə müstəqil şəkildə həll etmələrini daha da çətinləşdirir. Qadınların ədalət mühakiməsinə çıxışı məsələsinə hüquqlara əsaslanan yanaşma çərçivəsində hökumətlər qadınları ədalət mühakiməsi sistemindən istifadə etmələri və ədalət mühakiməsinə çıxış hüquqlarını bərpa etmələri üçün alət və

19. Bax: DEMI (Yerli xalqlardan olan qadınların müdafiəçisi təşkilatı), 2007. Yerli xalqlardan olan qadınların Qvatemalanın rəsmi ədalət mühakiməsi sisteminə çıxışı: İkinci hesabat. Qvatemala: DEMI; Sieder, R və M. Sierra, 2010. "Latın Amerikasında yerli xalqlardan olan qadınların ədalət mühakiməsinə çıxışı", mənbə: "Dünya qadınlarının tərəqqisi: 2011-2012" başlıqlı məlumatlandırıcı sənəd, Nyu York: "BMT-Qadınlar" strukturu, s. 57.
20. "BMT-Qadınlar" strukturu və Avropa Şurası, 2015. Qadınların üzləşdiyi konkret problemlər daxil olmaqla, ədalət mühakiməsinə çıxış imkanlarının qiymətləndirilməsi sistemi, səh. 141.
21. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi, "Hüquqi yardımla bağlı qlobal tədqiqat – Qlobal hesabat", 2020, sayt: https://www.unodc.org/documents/justice-and-prison-reform/LegalAid/Global_Study_on_Legal_Aid_-_FINAL.pdf.
22. Amerika Hüquqşünaslar Assosiasiyasının Qanunun Aliliyi Təşəbbüsü, 2012, s. 11

bacarıqlarla təmin etmək vəzifəsini daşıyırlar. Qadınların hüquqi şüur və savadlılığının artırılmasına yönələn proqramlar qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirmək istəyən hökumətlər üçün mühüm başlanğıc nöqtələridir. Həqiqətən də, qadınların öz hüquqlarını tələb etmələrinə imkan yaratmaqla, bu cür müdaxilələr eyni zamanda ədalət mühakiməsi sisteminin reaksiya qabiliyyətini və hesabatlılığını artırır.

**Siyasətin hazırlanmasında gender amilinin nəzərə alınması.** Qadınların və qızların öz hüquqlarına dair məlumatlılıq səviyyəsi və onları qorumaq və həyata keçirmək üçün istifadə edə biləcəkləri mexanizmlər barədə məlumatları ilk mənbə kimi onların özlərindən öyrənmək önəmli olsa da, tələb aspektinə aid məlumatlar məhkəmə və vətəndaş cəmiyyəti subyektlərinin məlumatları ilə birləşdirilməlidir, bu həm qadınların hüquqi bilgiləri barədə məhkəmələrdə və həmin subyektlərdə təsəvvürün yaranması üçün, həm də gender sahəsində məlumatlılığın artırılmasına və mümkün boşluqların aradan qaldırılmasına yönələn vasitələr barədə bilgiləri üçün önəmlidir. İstifadəsi asan və ödənişsiz və ya ucuz hüquqi informasiya resurslarının (məsələn, məhkəmələrdə və ya digər strateji məkanlarda, misal üçün, səhiyyə mərkəzlərində, məktəb kompleksində və s. yerlərdə fiziki və ya onlayn hüquq kitabxanalarının, ictimai hüquqi məlumat köşklərinin/xidmətlərinin) mövcudluğu və məqsədyönlü ictimai məlumatlandırma kampaniyaları, ədalət mühakiməsi mexanizmlərinə çıxış imkanlarını artırmağa kömək edə biləcək bəzi elementlərdəndir və ədalət mühakiməsi sisteminin əlçatanlığını qiymətləndirərkən onların mövcudluğu, keyfiyyəti və səmərəliliyi müəyyən edilməlidir.

PREMS 059622

AZE

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqına üzv dövlətlər öz təcrübələrini, resurslarını və müqəddəratlarını bir-biri iə bağlamaq qərarına gəlmişlər. Onlar birlikdə, mədəniyyət müxtəlifliyini, tolerantlığı və fərdi azadlıqları qorumaqla sabitlik, demokratiya və dayanıqlı inkişaf zonası yaratmışlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini öz hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşmək əqidəsinə sadiqdir.

**www.europa.eu**

Avropa İttifaqı
və Avropa Şurası
tərəfindən maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
icra edilir